DOI: https://doi.org/10.36719/2706-6185/57/86-91

**Cənanə Eminova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0000-0003-1403-1580
cenaneasgerova11@mail.ru
**Sevinc Mahmudova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0000-0001-7690-7184
sevinc.020ss@gmail.com
**Ayşən Abbasəlizadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0004-4087-4826
abbasalizadea@gmail.com
**Könül Əliyeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0003-4457-9819
konulaliyevauni@mail.ru
**Bağdagül Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0000-0003-4267-6781
bagdagul.mustafaeva7111@gmail.com

# Auditoriyadankənar tədbirlərdə tələbə şəxsiyyətinin formalaşdırılması işinin ümumpedaqoji prinsipləri

## Xülasə

Məqalə ali məktəblərin auditoriyadankənar tədbirlərdə tələbə şəxsiyyətinin formalaşdırılması işinin ümumpedaqoji prinsipləri probleminə həsr olunmuşdur. Məqalədə auditoriyadankənar tədbirlərdə tələbə şəxsiyyətinin formalaşdırılması prosesində ümumpedaqoji prinsiplərə istinad edilməyin yolları göstərilir. Məqalədə həm də auditoriyadankənar tədbirlərdə tələbə şəxsiyyətinin formalaşdırılması ilə bağlı nəzəri müddəalarla yanaşı, praktik nümunələrdən də istifadə olunmuşdur.

Təsadüfi deyil ki, "Azərbaycanda təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nda şəxsiyyətyönümlü təhsilin yeni məzmununun yaradılması mühüm aktuallıq kəsb edən vəzifələrdən biri kimi qarşıda durur. Bu aktual vəzifələrin müvəffəqiyyətlə icra edilməsindən ötrü ali məktəblərdə auditoriya təlimi prosesi ilə yanaşı, auditoriyadankənar tədbirlərdə də tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılması öz aktuallığı ilə diqqəti cəlb edir.

Ali məktəblərin auditoriyadankənar tədbirlərində ideya-siyasi tərbiyə vasitəsi ilə tələbə şəxsiyyətinə hörmət və tələbkarlıq göstərilməsi onların həyata hazırlanmasını yüksək səviyyədə təmin etmək olar.

Tələbələrin ideya-siyasi tərbiyəsinin istənilən səviyyədə formalaşdırılmasından ötrü bu sahədə zəhmətləri olan tələbə heyətinin hər bir üzvünə psixoloji cəhətdən düzgün yanaşılması haqqında danışılan problemin müvəffəqiyyətli həllinə nail olmaq üçün çox vacibdir. Məhz belə olan təqdirdə tələbə şəxsiyyətinin formalaşdırılması işini asanlıqla həyata keçirmək olar.

***Açar sözlər:*** *auditoriyadankənar tədbirlər, ali təhsil müəssisələri, tələbə şəxsiyyəti, şəxsiyyətin formalaşdırılması, tələbə şəxsiyyəti, ümumpedaqoji prinsiplər, etnopedaqoji materiallar*

**Janane Eminova**
Azerbaijan State Agrarian University
https://orcid.org/0000-0003-1403-1580
cenaneasgerova11@mail.ru


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Sevinc Mahmudova**
Azerbaijan State Agrarian University
https://orcid.org/0000-0001-7690-7184
sevinc.020ss@gmail.com
**Ayshan Abbasalizade**
Azerbaijan State Agrarian University
https://orcid.org/0009-0004-4087-4826
abbasalizadea@gmail.com
**Konul Aliyeva**
Azerbaijan State Agrarian University
https://orcid.org/0009-0003-4457-9819
konulaliyevauni@mail.ru
**Baghdagul Mammadova**
Azerbaijan State Agrarian University University
https://orcid.org/0000-0003-4267-6781
bagdagul.mustafaeva7111@gmail.com

# General Pedagogical Principles of Student Personality Formation in Extracurricular Activities

## Abstract

The article is devoted to the problem of general pedagogical principles in the formation of student personality through extracurricular activities in higher education institutions. It highlights the ways of applying general pedagogical principles in the process of developing student personality during extracurricular activities. Along with theoretical provisions concerning the formation of student personality in extracurricular settings, the article also uses practical examples to illustrate the discussed issues.

It is not accidental that the State Strategy for the Development of Education in Azerbaijan emphasizes the creation of a new content of personality-oriented education as one of the most actual tasks. In order to successfully implement these important objectives, special attention should be paid not only to classroom instruction in higher education institutions but also to the development of students' ideological and civic education through extracurricular activities.

Through ideological and civic education within extracurricular activities at higher education institutions, it is possible to ensure a high level of preparation of students for life by showing both respect for and demanding attitudes toward the student personality.

In order to achieve the desired level in the development of students' ideological and civic education, it is essential to apply a psychologically appropriate approach to each member of the student body involved in this process. Under such conditions, the task of forming the student personality can be carried out more effectively.

***Keywords:*** *extracurricular activities, higher education institutions, student personality, personality formation, general pedagogical principles, ethnopedagogical materials*

## Giriş

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xalq təsərrüfatının müxtəlif sahələrində olduğu kimi, ali təhsil sistemində də mühüm nailiyyətlər əldə olunmuşdur. Bu nailiyyətlər sırasında ideya-siyasi tərbiyə vasitəsilə tələbə şəxsiyyətinin müasir dövrün tələblərinə uyğun şəkildə formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Tələbə şəxsiyyətinin formalaşdırılması prosesində ümumpedaqoji prinsiplərə istinad edilməsi mühüm və səmərəli hesab olunur. Bunun əsas səbəbi ondan ibarətdir ki, təlim prosesində tələbə şəxsiyyətinin formalaşdırılması zamanı müəyyən pedaqoji

prinsiplərə istinad edildiyi kimi, tərbiyə prosesində də bu prinsiplərin nəzərə alınması zəruri hesab edilir (Abbasov və Əlizadə, 2024).

Ölkəmizdə uğurla həyata keçirilən təhsil islahatları ilə bağlı qəbul edilmiş direktiv sənədlərdə ali təhsil müəssisələrində təlim prosesi ilə yanaşı, auditoriyadankənar fəaliyyət zamanı da tələbələrin şəxsiyyətyönümlü inkişaf səviyyəsinin yüksəldilməsi ilə bağlı qarşıya qoyulan vəzifələr xüsusi aktuallıq kəsb edir. Çünki ali məktəb tələbələrinin elmi dünyagörüşlərinin formalaşdırılması ilə yanaşı, onların tərbiyəlilik səviyyəsinin yüksəldilməsi də şəxsiyyətyönümlü inkişafın təmin olunmasında mühüm rol oynayır.

**Tədqiqat**

Auditoriyadankənar tədbirlərdə ideya-siyasi tərbiyə vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması imkanları, forma və yolları müəyyənləşdirildikdən sonra bu prosesin ümumpedaqoji prinsiplərinin də müəyyən edilməsi və onlara istinad olunması haqqında danışılan problemin hərtərəfli həllinə şərait yaradır. Bu zaman pedaqoji elmlərdə mövcud olan prinsiplərlə yanaşı, zərurət yarandıqda yeni və ya əlavə prinsiplərin müəyyənləşdirilməsi də məqsədəuyğun hesab olunur (Azərbaycan Respublikasının Konstitusiyası, 2019).

Qeyd etmək lazımdır ki, elmi pedaqogikada "ümumpedaqoji prinsiplər" anlayışı ən çox tərbiyənin prinsipləri kimi izah edilir. Məhz bu prinsiplərə istinad etməklə təhsil alanların həyata hazırlanmasına nail olmaq mümkündür. Bu prinsiplərdən biri tərbiyənin həyatla əlaqələndirilməsi prinsipidir. Sovet İttifaqı dövründə bu prinsip tərbiyənin həyat və kommunizm quruculuğu ilə əlaqələndirilməsi kimi izah edilirdi. Müstəqillik dövründə isə həmin prinsip yeni məzmun qazanaraq tərbiyənin həyatla, əməklə və müstəqil dövlət quruculuğu prosesləri ilə əlaqələndirilməsi kimi qəbul edilmişdir. Digər pedaqoji prinsiplər də müvafiq dəyişikliklər və qismən redaktə olunmaqla yeni şəraitə uyğun şəkildə təsnif edilmişdir (Həşimov və Sadigov, 2000).

Qeyd olunan tərbiyə prinsiplərinin yalnız ümumtəhsil məktəbi şagirdlərinin həyata hazırlanması ilə məhdudlaşdırılması düzgün hesab oluna bilməz. Əgər "Pedaqogika", "Pedaqogikaya giriş", "Məktəb pedaqogikası", "Tərbiyə nəzəriyyəsi", "Tərbiyəşünaslıq" və digər bu kimi dərslik və vəsaitlər bakalavr pilləsi üzrə tədris prosesinə daxil edilmişdirsə, magistratura səviyyəsində də tələbələrin ideya-siyasi tərbiyəsi məsələlərinə daha geniş yer verilməsi zəruri hesab olunmalıdır. Xüsusilə auditoriyadankənar tədbirlər vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması bu baxımdan mühüm elmi və pedaqoji əhəmiyyət kəsb edir. Müasir dövrdə ölkəmizin üzləşdiyi müxtəlif siyasi və ideoloji çağırışlar tələbələrin ideya-siyasi baxımdan yetkin və fəal vətəndaş kimi formalaşdırılmasını aktuallaşdırır. Bu məqsədlə ali təhsil müəssisələrində tələbələrin ictimai fəallığını artıran tələbə qruplarının, dərnəklərin və birliklərin fəaliyyət göstərməsi vacibdir. Belə təşkilatlar tələbələrin ictimai-siyasi proseslərdə fəallığını artırmaqla yanaşı, onların dövlətçilik mövqeyinin möhkəmlənməsinə də xidmət edir. Bu baxımdan auditoriyadankənar tədbirlərdə ideya-siyasi tərbiyə vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması işinin ümumpedaqoji prinsiplərinin müəyyənləşdirilməsi zəruri hesab olunur. Bu prinsiplərdən biri ideya-siyasi tərbiyənin həyatla və dövlət quruculuğu prosesi ilə əlaqələndirilməsi prinsipidir. Tələbələrin real həyat hadisələrinə inteqrasiyası və ictimai-siyasi fəallığının artırılması onların ideya-siyasi tərbiyəsinin formalaşmasında mühüm rol oynayır (Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, 2010).

Bakı Dövlət Universitetinin professoru Ləzifə Qasımovanın rəhbərliyi ilə mütəmadi olaraq təşkil edilən auditoriyadankənar tədbirlərdə müəllimlər tələbələrin ideya-siyasi tərbiyəsi ilə bağlı müxtəlif məruzə və çıxışlar edirlər. Həmin məruzə və çıxışlar "Tələbələrin ideya-siyasi tərbiyəsinin inkişaf etdirilməsi günün tələbidir", "Tələbələrin ideyalılıq səviyyəsinin yüksəldilməsində auditoriyadankənar tədbirlərin rolu", "Yeni Azərbaycan Partiyasının tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılmasında rolu" kimi mövzular ətrafında təqdim olunur. Belə tədbirlərin təşkilində tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılması işinin ümumpedaqoji prinsiplərinin müəyyənləşdirilməsi və həmin prinsiplərə istinad etməklə həyata keçirilən fəaliyyətin yeni məzmununun formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Qeyd edildiyi kimi, ilkin prinsip kimi auditoriyadankənar tədbirlərdə ideya-siyasi fəaliyyət vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması işinin həyatla və dövlət quruculuğu prosesi ilə əlaqələndirilməsi prinsipi qəbul olunur. Bu prinsipdən sonra istinad edilməsi zəruri hesab olunan növbəti prinsip məqsədəmüvafiqlik prinsipidir. Belə ki,

auditoriyadankənar tədbirlər çərçivəsində ideya-siyasi mövzuda təşkil olunan fəaliyyət zamanı qarşıya qoyulan məqsədin düzgün müəyyənləşdirilməsi həmin məqsəddən irəli gələn vəzifələrin də səmərəli şəkildə həyata keçirilməsinə şərait yaradır. Məhz buna görə də tələbə şəxsiyyətinin formalaşdırılması prosesində növbəti mühüm prinsip kimi məqsədəmüvafiqlik prinsipinin müəyyənləşdirilməsi zəruri hesab olunur (Həsənova, 2019).

Qeyd olunanları nəzərə alaraq demək olar ki, ali təhsil müəssisələrində auditoriyadankənar tədbirlər vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması işinin məqsədəmüvafiqlik prinsipinə əsaslanaraq həyata keçirilməsi ideya-siyasi tərbiyənin səmərəliliyini artırır. Auditoriyadankənar tədbirlərdə istinad olunmalı mühüm prinsiplərdən biri də yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipidir. Bu prinsip həm pedaqoji ədəbiyyatda, həm də etnopedaqogikada mühüm yer tutur. Elmi-pedaqoji mənbələrdə olduğu kimi, Azərbaycan xalq pedaqogikasında da şəxsiyyətin formalaşdırılması prosesində yaş xüsusiyyətlərinin nəzərə alınması əsas prinsiplərdən biri kimi göstərilir. Professorlar Əliheydər Həşimov və Fərahim Sadıqovun "Azərbaycan Xalq Pedaqogikası" dərsliyində qeyd olunur ki, insanın inkişafı irsi xüsusiyyətlər, mühit və tərbiyə ilə bağlıdır və tərbiyə işi müxtəlif yaş dövrlərinin xüsusiyyətləri nəzərə alınmaqla aparılmalıdır. Bu baxımdan ali məktəblərdə də həyata keçirilən tərbiyə işləri tələbələrin yaş xüsusiyyətləri nəzərə alınmaqla təşkil edilməlidir. Auditoriyadankənar tədbirlərdə ideya-siyasi fəaliyyət vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması prosesində bu prinsipə riayət olunması daha səmərəli nəticələrin əldə edilməsinə şərait yaradır (Eminova və b., 2024).

Fikrimizcə, I kurs tələbələri ilə IV kurs tələbələri və ya magistrantların siyasi fəallıq səviyyəsi arasında müəyyən fərqlər olmalıdır. Bu fərqlər onların yaş xüsusiyyətləri ilə birbaşa bağlıdır. Belə ki, I kurs tələbələrinin siyasi fəallığı yuxarı kurs tələbələrinin fəallığı ilə eyni səviyyədə ola bilməz. Buna görə də tələbələrin həm yaş, həm də fərdi xüsusiyyətlərinin nəzərə alınması vacib hesab olunur (Kazımov, 2006).

Elmi pedaqogikada da fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi mühüm yer tutur. Məlum olduğu kimi, insan dünyaya müəyyən bioloji xüsusiyyətlərlə gəlir. Bəzi insanlar təbiətcə şən, gümrah və işgüzar, bəziləri sakit və təmkinli, digərləri isə coşqun və ya utancaq xarakterə malik olurlar. Şəxsiyyətin formalaşmasına təsir edən amillər sırasında alimlər – o cümlədən fizioloqlar, psixoloqlar, sosioloqlar, filosoflar və pedaqoqlar – əsasən irsiyyət, mühit və tərbiyə amillərini xüsusi qeyd edirlər. İrsiyyət və qismən digər amillərin təsiri ilə formalaşan bu xüsusiyyətlər fərdi xüsusiyyətlər kimi xarakterizə olunur. Psixoloqların fikrincə, hər bir insanın fərdi xüsusiyyətləri onun temperamentinə uyğun olaraq müəyyənləşir (Həşimov və Məmmədov, 2014).

Məhz bu baxımdan ali məktəblərdə auditoriyadankənar tədbirlər vasitəsilə tələbə şəxsiyyətinin formalaşdırılması prosesində tələbələrin fərdi xüsusiyyətlərinin nəzərə alınması ayrıca bir prinsip kimi mühüm əhəmiyyət daşıyır. Təcrübə və müşahidələr göstərir ki, tələbələr müxtəlif fərdi xüsusiyyətlərə malikdirlər. Onların bir qismi iqtidarda olan "Yeni Azərbaycan Partiyası"nın üzvüdür, bir qismi ölkə rəhbərliyinə hörmətlə yanaşır, bəziləri isə müxalif mövqeyə meylli ola bilər. Hətta tələbələr arasında siyasətə maraq göstərməyənlərə də rast gəlinir.

Bu səbəbdən tələbələrə fərdi yanaşmaq, onların ideyalılıq səviyyəsini artırmaq və siyasi baxımdan formalaşmalarına dəstək vermək vacibdir. Belə fəaliyyət isə ardıcıl və sistemli şəkildə həyata keçirilməlidir. Buna görə də tərbiyə işində ardıcıllıq, sistemlilik, fasiləsizlik və mütəmadilik prinsiplərinə istinad etmək zəruridir (Məmmədov, 2020).

Qeyd etmək lazımdır ki, bu prinsiplərin əsası ilk növbədə ailədə qoyulur. Ailədə və məktəbdə tərbiyə prosesində ardıcıllığın qorunması necə vacibdirsə, ali məktəblərdə aparılan tərbiyə işlərində, o cümlədən ideya-siyasi tərbiyə fəaliyyətində də sistemli və davamlı yanaşma yüksək səmərəlilik təmin edir. Bu işlərin həyata keçirilməsində nikbinlik də mühüm rol oynayır. Təsadüfi deyil ki, elmi pedaqogikada nikbinlik prinsipi tərbiyənin aparıcı prinsiplərindən biri hesab olunur.

Müşahidələr göstərir ki, ali məktəblərdə davamiyyəti zəif olan, mühazirə və seminar məşğələlərində müəllim və tələbə yoldaşları ilə ünsiyyətdə qüsurlu davranışları ilə seçilən tələbələrə də rast gəlinir. Həmçinin ölkənin ictimai-siyasi həyatı ilə maraqlanmayan, ali məktəblərdə keçirilən tədbirlərdə və görüşlərdə iştirak etməyən tələbələr də vardır. Belə tələbələrlə ideya-siyasi tərbiyə baxımından nikbin və məqsədyönlü şəkildə işləmək vacibdir. Ali məktəblərin tərbiyə işləri üzrə

məsul şəxsləri bu tələbələrlə planlı və sistemli iş aparmaqla onların intizamında, davamiyyətində və tədbirlərə marağında müsbət dəyişikliklərə nail ola bilərlər. Bir sıra pedaqoji mənbələrdə hörmət və tələbkarlıq da mühüm tərbiyə prinsipi kimi göstərilir. Şifahi xalq ədəbiyyatında – atalar sözləri, məsəllər və digər nümunələrdə – bu prinsipi əks etdirən çoxlu tərbiyəvi fikirlər mövcuddur. Onlardan ali məktəblərin auditoriyadankənar tədbirlərində tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılmasında istifadə etmək məqsədəuyğundur. Buna görə də hörmət və tələbkarlığın ümumpedaqoji prinsiplərdən biri kimi qəbul edilməsi faydalı hesab olunur.

Elmi pedaqogikada tərbiyənin prinsiplərinə "vahidlik və kollektiv təsirin vahidliyinin təmin olunması", "tərbiyə işinə kompleks yanaşma" və "psixoloji inkişafın nəzərə alınması" daxildir. Bu prinsiplər ümumtəhsil məktəblərində tətbiq üçün nəzərdə tutulsa da, ali məktəblərin auditoriyadankənar tədbirlərində tələbələrin ideya-siyasi tərbiyəsində də onlara istinad etmək bir sıra üstünlüklər yaradır (Əliyev, 2021).

Belə ki, vahidlik və kollektiv təsirin təmin olunması prinsipi tələbələrin ideya-siyasi tərbiyəsində həm ali məktəb rəhbərlərinin, həm də tədbirlərə rəhbərlik edən mütəxəssislərin qarşıya qoyulan məqsədlərin hamı tərəfindən qəbul edilməsini təmin edir. Bu, tələbələrin tərbiyəsinin günün tələbləri səviyyəsində formalaşmasına imkan yaradır. Eyni yanaşma komplekslik və psixoloji inkişaf prinsiplərinə də aiddir. Tələbələrin ideya-siyasi tərbiyəsini planlaşdırma, tədbirləri həyata keçirmə, nəticələri müzakirə etmə, fərqlənən tələbələri mükafatlandırma və digər fəaliyyətləri kompleks şəkildə təşkil etmə bu sahədə uğurların təmin olunmasına kömək edir (Qasımova, 2022).

Ayrıca, fərqli kurslarda təhsil alan tələbələrin ideya-siyasi tərbiyəsinə vahid tələblərlə yanaşmaq məqsədəuyğundur. Bu tələblər aşağıdakı kimi təsnif edilə bilər (Rüstəmov və Dadaşova, 2007):

1. Ali məktəblərin I kursuna qəbul olunmuş tələbələrin auditoriyadankənar tədbirlərə cəlb olunması üzrə işin planlaşdırılması.
2. Auditoriyadankənar tədbirlərə cəlb olunan tələbələrə auditoriyadankənar tədbirlərin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri ilə bağlı məlumatların verilməsi.
3. Tələbələrə auditoriyadankənar tədbirlərin ideya-siyasi tərbiyə ilə bağlı olan növləri haqqında məlumatların verilməsi.
4. Tələbələrin ideya-siyasi tərbiyə ilə bağlı tədbirlərə düzgün istiqamətləndirilməsi.
5. İdeya-siyasi tərbiyə ilə bağlı olan mövzular üzərində məqsədyönlü, planlı və mütəşəkkil işlərin aparılması.
6. Tələbələrin ideya-siyasi tərbiyəsinin formalaşdırılması işinin əsas istiqamətlərinin düzgün müəyyənləşdirilməsi.
7. Auditoriyadankənar tədbirlərdə ideya-siyasi tərbiyə mövzusunda təşkil edilən gecələrin, görüşlərin, dəyirmi stolların, tələbə teatrlarının və digər bədii yaradıcılıq kollektivlərinin təşkili işinə tələbələrin düzgün istiqamətləndirilməsi.
8. İdeya-siyasi tərbiyə ilə bağlı hər hansı bir tədbirin təşkili zamanı tələbələrin məşq rejiminə uyğunlaşdırılmasının təmin edilməsi.
9. İdeya-siyasi tərbiyə ilə bağlı təşkil edilən tədbirlər zamanı tələbələrin sosiallaşmasına diqqətin artırılması.
10. İdeya-siyasi tərbiyənin formalaşdırılması işində ali məktəb, ailə və ictimai təşkilatlarla birgə fəaliyyət istiqamətlərinin düzgün müəyyənləşdirilməsi.

## Nəticə

Deməli, auditoriyadankənar tədbirlərdə tələbə şəxsiyyətinin formalaşdırılması işinin ümumpedaqoji prinsiplərinə istinad etməklə həyata keçirilən işlərin müvəffəqiyyətli həllinə nail olmaqdan ötrü müvafiq tələblərin də gözlənilməsi daha faydalı sayılır.

Məqalənin elmi yeniliyi. Məqalədə auditoriyadankənar tədbirlərdə tələbə şəxsiyyətinin formalaşdırılması işinin ümumpedaqoji prinsipləri təsnif edilmişdir. Hansı ki, ümumpedaqoji prinsiplərin auditoriyadankənar tədbirlərə şamil edilməsi ən mühüm elmi yeniliklərdəndir.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədən ali məktəblərin auditoriyadankənar tədbirlərinə rəhbərlik edənlər, ali məktəb müəllimləri, ali məktəb tələbələri və bu sahədə tədqiqat aparanlar istifadə edərək yararlana bilərlər.

Nəticə etibarilə qeyd etməliyik ki, auditoriyadankənar tədbirlərdə ümumpedaqoji prinsiplərə istinad etməklə tələbə şəxsiyyətinin formalaşdırılması işinə günün tələbləri səviyyəsində nail olmaq mümkündür.

## Ədəbiyyat

1. Abbasov, A. N., & Əlizadə, H. Ə. (2024). *Pedaqogika* (Dərslik). Mütərcim.
2. Azərbaycan Respublikasının Konstitusiyası. (2019). Hüquq Yayım Evi.
3. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. (2010). Qanun.
4. Əliyev, R. (2021). *Tələbə gənclərin siyasi fəallığının inkişaf etdirilməsi yolları*. Elm və Təhsil.
5. Eminova, Ç. Ş., Mövsümlü, A. M., Quliyev, A. İ., Sadıqov, F. B., & Tahirova, Ş. T. (2024). *Ali məktəb pedaqogikası*. Gənc Nəşr.
6. Həsənova, S. (2019). *Auditoriyadankənar tədbirlərdə tərbiyənin kompleks yanaşması*. Təhsil Nəşriyyatı.
7. Həşimov, Ə. Ş., & Sadıqov, F. B. (2000). *Azərbaycan xalq pedaqogikası*. Ünsiyyət.
8. Həşimov, Ə., & Məmmədov, T. (2014). *Tərbiyədə nikbinlik və motivasiya prinsipləri*. Elm.
9. Kazımov, N. M. (2006). *Ali məktəb pedaqogikası*. Əl-Fərul Nəşriyyatı.
10. Məmmədov, T. (2020). Tərbiyə prinsipləri və ali məktəblərdə tətbiqi. *Azərbaycan Pedaqoji Jurnalı, 3*(1), 25–38.
11. Qasımova, L. (2022). *Ali məktəblərdə tələbələrin ideya-siyasi tərbiyəsi və auditoriyadankənar fəaliyyətlər*. Təhsil Nəşriyyatı.
12. Rüstəmov, F., & Dadaşova, T. (2007). *Ali məktəb pedaqogikası*. Nurlan.

Daxil oldu: 20.12.2025
Qəbul edildi: 06.03.2026